# "Bakı-Xəbər" və "Xatirə Kitabı" şəhid Məmmədov qardaşlarının xatirəsini belə əbədiləşdirdi...

**Bir yay səhərində yola çıxdıq, yolumuz Şəmkirədir. Qəhrəmanlar diyarı Şəmkirə getməyimiz səbəbsiz deyil, 44 günlük Vətən savaşında ilk cəbhəni yaran oğullardan olan Cavid və Çingiz Məmmədov qardaşlarının ruhlarının işığını tutub yola çıxmışıq.**







***Nəzakət Məmmədova:** "Hazırda təqdimatına yığışdığımız "Şəhid qardaşlar" kitabı bizim hələlik sonuncu kitabımız sayılır"*

***Rəfail Tağızadə:** "Cavidlə Çingiz 44 günlük Vətən müharibəsində ilk cəbhəni yaranlardandır"*

***Faya ana:** "Sinəsini sipər edib vətənini qoruyan Çingizin, bir batalyonu minalanmış sahədən çıxaran Cavidin anasıyam, bütün şəhidlərin anasıyam..."*

***Zülfiyyə Eldarqızı:** "Mən "Xatirə Kitabı" redaksiyasının kollektivinə bir təklif vermək istəyirəm..."*

Bu yoldan neçə-neçə şəhid karvanları keçib, cismi üçrəngli bayrağa sarılan, bədəni ana torpağa əmanət edilən, ruhu göylərə bülənd olan şəhidlərin arxasınca bu yollar ana kimi dualar pıçıldayıb...

Torpaqdı, anadı vətən,
Canlardan bahadı vətən,
Qeyrətli sonadı vətən,
Şəhidi doğan analar...

Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədovanın rəhbərliyi ilə Şəmkir Gənclər Evi sosial xidmət müəssisəsinin binasında Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyasının "Bakı-Xəbər" qəzeti ilə birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" silsiləsindən 44 günlük Vətən müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə çap etdiyi "Şəhid qardaşlar" kitabının təqdimatına gedirik. Hər birimizin içində bir nisgil, bir ağrı var. Bizi şəhid anasının gözlərindəki dilsiz sualları gözləyir, şəhid balalarının yaşlı gözlərinə, boynubükük gəlinlərin solğun üzünə, şəhid atasının bükülmüş qamətinə baxmaq ağırlığını hiss edirik.

Şəmkir rayonunun Yeniabad kənd sakini İlham ata və Faya ananın ocağında böyüyən bir cüt oğul övladı Vətən uğrunda canlarını fəda edib elin, xalqın oğlu olmaq statusuna yiyələndilər.

Tanınmış şair-publisist, qiymətli ziyalı, qələmdaşımız Rəfail Tağızadənin yazdığı "Şəhid qardaşlar" kitabında şəhid gizirlər Cavid və Çingiz Məmmədov qardaşlarının ömrünün hər detalına diqqət yetirilir. Bəli, bu kitab Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərərək şəhid olmuş qardaşlar - Cavid və Çingiz Məmmədovların həyat, döyüş yolu və qəhrəmanlığından bəhs edir.

Yol boyu kitab əldən-ələ gəzir, oxuyuruq, şəhid qardaşların ömürlüyünü bir daha vərəqləyirik... Kitabın səhifələrində Faya ananın, İlham atanın, Cavidin övladları Elcanın, Damlanın, Çingizdən yadigar qalan Elgiz və Uğurun qəmli baxışlarına gözlərimiz sataşır... Amma içimizdə bir işartı var - onlar çox məğrur, qürurlu dayanıblar...

Nəhayət, uzaq yolun damarını qırıb Şəmkirə yetişirik, Gənclər Evi sosial xidmət müəssisəsinin binasında bizi Cavid və Çingiz Məmmədovların ailəsi və başqa şəmkirli şəhidlərin valkideynləri, ailə üzvləri, onların müəllimləri, məktəblilər gözləyirdi. Gənclər Evinin tədbir keçirilən zalı Azərbaycan Bayrağına və şəhidlərin fotosuna bələnmişdi. Hər ananın əlində oğlunun şəkli vardı, analar şəhid balalarının şəkillərini köksləri̇nə sıxmışdılar. Analar gah ağlayır, gah da balalarının qəhrəmanlığından qürurla danışırdılar.

Azərbaycanın dövlət himni səsləndirdikdən və şəhidlərimizin əziz ruhları bir dəqiqəlik sükutla yad edildikdən sonra "Şəhid qardaşlar" kitabının təqdimat mərasimini açan kitabın müəllifi Rəfail Tağızadə ilk sözü Şəmkir Rayon İcra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Aynur Abdullayevaya verdi. A.Abdullayeva çıxışında rayon rəhbərliyinin şəhid ailələrinə qayğı və diqqətindən danışdı, bildirdi ki, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində işlər görülür. A.Abdullayeva vurğuladı ki, bütün şəhidləri bir amal birləşdirir, onlar öz canlarını Vətəni yaşatmaq üçün fəda edirlər. "Birinci Qarabağ müharibəsi və 44 günlük Vətən müharibəsi şəhidləri bizim babalarımız, atalarımız, qardaşlarımızdır. Hamsının ruhu qarşısında baş əyirik. Bu gün bura Rəfail Tağızadənin "Şəhid qardaşlar" kitabının təqdimatına yığışmışıq. Bu kitab əbədi yaşayan, ölməz Cavid və Çingiz Məmmədov qardaşlarına həsr edilib. Bütün şəhidlərimiz ölməzdir, əbədi yaşayır. Şəhidlik cənnətə malik olmaqdır"- deyə vurğulayan A.Abdullayeva vurğuladı ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva şəhid ailləri̇nə və qazilərimizə qayğısını əsirgəmir. "Bizim də şəhid ailərinə xidmət göstərmək borcumuzdur. Çünki onlar bizim əminamanlığımız üçün canlarından keçiblər" - deyə bildirən icra başçısının müavini Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədovaya və kitabın müəllifi Rəfail Tağızadəyə minnətdarlıq etdi.

Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədova isə çıxışında "Hər bir suala cavab var, təkcə şəhid anaları qarısında verilən suallara cavab tapılmır. Bu birmənaldır. Müharibə canlar alır. 44 günlük müharibədə böyük zəfər qazanmışıq, qələbə sevincini yaşamışıq. Təəssüf ki, müharibə qansız-qadasız, şəhidsiz olmur, bizim bu müharibədə üç mindən artıq şəhidimiz olub.

Mən Respublika Xatirə Kitabı haqda qısa məlumat vermək istəyirəm. Respublika Xatirə Kitabı 1997-ci ildə ulu öndərin xeyir-duası ilə çap olunmağa başlayıb. Bu, 1941-1945-ci illərdə həlak olan soydaşlarımız haqqında toplu olmalı idi. Kitabın əsas məğzi bu idi. Çünki bütün MDB ölkələrində ümumiləşdirilmiş 1400 cildlik kitabın 20 cildi Azərbaycanın payına düşmüşdü. Bu kitablar İkinci Dünya müharibəsində həlak olanlarımız barədə olmalı idi. Lakin elə oldu ki, sonradan zorla cəlb edildiyimiz Qarabağ müharibəsində şəhid olanların adlarını da əbədiləşdirmək bizə düşdü. O vaxt bilirsiz ki, nizami ordumuz yox idi, biz təkcə kiçik, mənfur bir qonşu ilə müharibə aparmadıq, böyük bir imperiyanın başında duran bir ölkə ilə müharibə apardıq. Ona görə də bizim məğlubiyyətimiz danılmaz idi. Amma Birinci Qarabağ müharibəsində həlak olan 20 minə yaxın soydaşımızın adı Respublika Xatirə Kitabında əbədiləşdi. 2017-ci ildən bizə bir layihə də verdilər. Bilirsiz ki, kitablarda şəhid olanların adları vardı. Amma əsir, itkin və girovlarımızla bağlı məlumatlar Dövlət Komissiyası və onun İşçi Qrupu tərəfindən toplanırdı. Sonradan onun çapını da Xatirə Kitabına verdilər. Respublika Xatirə Kitabının Vətən müharibəsində həlak olmuş üç min şəhidlə bağlı "44 gün - Tarixi zəfər" adlı üçcildliyi hazırlanır. Kitabın birinci cildinin bir neçə rayonda təqdimat mərasimi keçirilib. Kitabda Vətən uğrunda həlak olmuş, "A-Ə" hərfləri üzrə adları sıralanmış şəxslər barədə ensiklopedik məlumat verilib, digərlərinin də adlarının əbədiləşdirilməsi istiqamətində ikinci cild üzərində iş tamamlanmaq üzrədir".

N.Məmmədova qeyd etdi ki, bu cildliklərdə artıq üç min şəhidimiz haqda tam məlumat əksini tapmaqdadır. Onun sözlərinə görə, müasir Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin qayğısı və təşəbbüsü ilə yaradılmış, onun xeyir-duası ilə fəaliyyətə başlamış Respublika Xatirə Kitabı insan resurslarını əbədiləşdirən tarixi sənəd, tarixlə cəmiyyət arasındakı həqiqətləri, müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik salnamədir. Bu kitabda İkinci Dünya müharibəsi, Əfqanıstan döyüşləri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlarımız haqqında əhatəli materiallar dərc edilir.

"Qeyd etdiyim kimi, Xatirə Kitabı İkinci Dünya müharibəsi, Əfqanıstan döyüşləri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş şəxslərə bağlı dəqiq məlumat bankıdır. Ona görə də heç bir şəhid unudulmur, heç bir şəhid yaddan çıxmır. Şəhdilərin adlarının əbədiləşdirilməsi təkcə bugünümüz üçün deyil, gələcəyimiz üçündür. Bu nəşrlər gələcəyə bir yaddaş kitabçasıdır ki, bu oğulların vətən uğrunda canlarından necə keçdiklərini oxuyub öyrənsinlər. Şəhidlər haqda məlumatlardan əlavə, aldıqları medallar da dəqiqliyi ilə göstərilir. Yeni tarix olduğu üçün şəhidlərimiz haqda məlumat toplamaq o qədər çətin olmadı.

Bizim belə layihələrimiz çoxdur. 2017-ci ildə Respublika Xatirə Kitabı Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə yeni bir layihəyə başladı. Qərara alındı ki, "Şəhidlər ölməz, Vətən bölünməz!" seriyasından hər şəhid üçün bir kitab yazılsın. Müxtəlif rayonlardan olan ayrı-ayrı şəhidlər haqda kitab yazılıb. İndiyə qədər bu layihə çərçivəsində 10-a yaxın kitabımız işıq üzü görüb. Hazırda təqdimatına yığışdığımız "Şəhid qardaşlar" kitabı bizim hələlik sonuncu kitabımız sayılır.

Ardı 12-ci səh.

*Əvvəli 11-ci səh.*

Açığı, o vaxt bu layihə üçün mən bir neçə qəzetə müraciət etmişdim, müraciətimizə "Bakı-Xəbər" müsbət cavab verdi. İstəyirdim ki, kitab nəşr edilməmişdən əvvəl onun materialları qəzetdə çıxsın. Kitablarımızın materialları əvvəlcə müntəzəm olaraq "Bakı-Xəbər" qəzetində çap olunur, sonra kitab şəklində nəşr olunur. Rəfail müəllimə təşəkkür edirəm, o bu işə çox ürəklə yanaşdı. Burada şəhidlərin ana-atası, həyat yoldaşları, balaları əyləşib. Bircə şəhid analarının qarşısında heç bir suala cavab tapmamışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allaha şükür ki, qanları yerdə qalmadı. Biz şəhidlərin qanı hesabına zəfər çalmışıq"-deyə N.Məmmədova qeyd etdi.

Kitabın müəllifi R.Tağızadə isə əlavə etdi ki, bu kitabın qəhrəmanları olan şəhid qardaşlar Qarabağ müharibəsində ik cəbhəni yaran qəhrəmanlardan olub və qəhrəmanlıqla şəhid olan Cavid Məmmədov dəfn olduqdan sonra qardaşı Çingiz Məmmədov şəhid olub. "Bu zala müxtəlif kateqoriyadan olan insanlar yığışıb, bəlkə də biz öz tədbirimizə bu qədər adam toplaya bilməzdik. Amma onlar hamısı bura şəhidlərə görə yığışıb. Şəhidlər bizim hamımızındır, onlar hər birimizin oğlumuzdur, atamızdır, əzizimizdir. Onlar torpaq üçün canlarını veriblər, bizə qələbə sevincini yaşadıblar, torpaqlarımızı geri qaytarıblar.

Nəzakət xanım bu kitabın yazılması ilə bağlı mənə etimad göstərdi, mən kitabı yazarkən şəhidlərimizin valideynləri, yaxınları, müəllimləri, onları tanıyanlarla söhbətlər etmişəm.

Cavidlə Çingiz 44 günlük Vətən müharibəsində ilk cəbhəni yaranlardandır, bizə qələbə yaşadanlardandı"-deyə müəllif vurğuladı.

"Şəmkir rayonu Yeniabad kəndinin iki şəhidinin anası kimi



Xatirə kitabı redaksiyasının baş redaktoru Nəzakət xanıma və kitabın müəllifi Rəfail müəllimə təşəkkürümü bildirirəm. Belə kitablar biz şəhid analarına bir təsəllidir. İstərdim ki, bunların adları əbədiləşdirilsin, adları məktəblərə verilsin, gələcək nəsillər onları tanısın, adları tarix kitablarına yazılsın. Balalarımız Vətən yolunda canlarından keçdilər. Övladlarını, ata-analarını, ailələrini düşünmədən silaha sarılıb Vətən torpağını müdafiə etdilər. Mənim övladlarımın timsalında bütün şəhidlər qəhrəmandır. Cavidin dəfn günündə, oktyabrın 4-də "qələbəniz mübarək olsun" dedim. Biz qəhrəmanlar böyütdük. Onla evin oğlu kimi doğuldular, amma elin oğlu oldular. Qardaşının şəhidlik xəbərini eşidib, amma geri dönməyən, sinəsini sipər edib vətənini qoruyan Çingizin, bir batalyonu minalanmış sahədən çıxaran Cavidin anasıyam, bütün şəhidlərin anasıyam". Bu sözləri isə iki balasını, iki gözünü Vətən uğrunda şəhid verən Faya ana dedi.

Tədbirdə Şəmkir rayon Yeniabad kənd R.Əliyev adına orta məktəbin müəlliməsi və şəhidlərin müəllimi Türkan Cəfərova da çıxış edərək bildirdi ki, o, məktəbə müəllim təyin ediləndə Cavid 10, Çingiz isə 8 - ci sinifdə oxuyurdu. Cavidin sakit təbiətli şagird olduğunu deyən Türkan müəllimə Cavidə "şokolad oğlan" deyirmiş. Çingizin isə çılğın, dəcəl olduğunu xatırlayan müəllimə bildirdi ki, Çingiz dərslərdən birində, "Qarabağı biz azad edəcəyik" deyib. Müəllimə şagirdlərin qəhrəmanlığı ilə öyündüyünü qeyd etdi.

Məktəbin digər müəllimәsi Elza Hüseynova da şəhidlərin qəhrəmanlığından danışdı.

Tədbirə qonaq qismində qatılan sənətşünaslıq üzrə fəlsəfə doktoru, bədii qiraətçi Zülfiyyə Eldarqızı da çıxış etdi: "Bu tədbirdə şəhid ailələrini gördüm, onları yaxından duydum. Şəhidin həyat yoldaşı yanımda oturmuşdu, kitabı vərəqləyir və gözündən sel kimi göz yaşı gedir. Elə bir insan yoxdur ki, bu acını yaşamasın...Təsəllimiz odur ki, biz artıq o torpaqları almışıq, qalib bir ölkənin vətəndaşlarıyıq. Nəzakət xanım, sizə təşəkkür edirəm, Xatirə Kitabı çox böyük bir missiyanı öz üzərinə götürüb. Rəfael müəllim, siz bu kitabı necə yazmısınız? Hissiz-həyəcansız, göz yaşısız oxumaq olmur. Orada Faya ananın bir cümləsini oxudum: "Artıq mənə ana deyən olmayacaq". Siz elə dəyərli işlər görürsüz ki, bu işləri gələcək nəsillər çox yüksək dəyərləndirəcək. Mən Xatirə Kitabı redaksiyasının kollektivinə bir təklif vermək istəyirəm, biz şəhidlərə həsr edilən şeirləri toplayaq və onları disk şəklində yazaq. Mənə elə gəlir ki, bu vacibdir".



Çıxışının sonunda Z.Eldarqızı şəhidlərə həsr olunan şeirlər səsləndirdi.

Tədbirdə R.Əliyev adına Yeniabad kənd orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Gülafət Həsənova, şəhid Çingizin döyüş yoldaşı Teymur Həbibov, şəhidlərin atası İlham Məmmədov da çıxış etdilər. Şəhidlərin təhsil aldıqları məktəbin şagirdləri onların ruhlarına həsr edilən şeirlər söylədilər...

Tədbirin sonunda şəhid Ömər Rəhimlinin həyatı, keçdiyi döyüş yolundan bəhs edən "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "Vətən daşı..." sənədli filminin təqdimatı oldu. Filmlərin layihə rəhbəri Respublika Xatirə Kitabı redaksiyasının baş redaktoru Nəzakət Məmmədova, rejissoru və ssenari müəllifi Vüsal Nurudur. İnanırıq ki, nə vaxtsa şəhid qardaşlara həsr edilən sənədli film də çəkiləcək...

Hər şəhid bir ovuc vətən torpağıdır, ruhları isə göylərdə yaşayır. Tədbirdən sonra şəhid qardaşların məzarını ziyarət etmək üçün Yeniabad məzarlığına getdik, onların ruhlarına dualar oxuduq. Faya ananın israrı ilə şəhidlərin doğulduğu evdə də olduq və burada ananın öz əlləri ilə balalarına düzəltiyi muzeylə tanış olduq. O otağa Cavidin, Çingizin ruhu hopub, divarlarında şəhidlərin nəfəsi yaşayır. Faya ana hər dəfə o otağa daxil olanda balalarının xəyalları ilə yenidən qol-boyun olur, onlardan yadigar qalan 4 fidan balaya atalarının qəhrəmanlığından danışır. Biz də sizə Cavid və Çingiz Məmmədov qardaşlarının qısa, lakin mənalı ömür yolundan bəhs edən bir kitabın təqdimatında yaşananlar barədə danışdıq.

Şəmkirdən ayrılıb Bakıya dönürük, içimizdə böyük bir nisgil olsa da, sanki hər kəsin çiynindən ağır bir yük götürülüb. Xatirə Kitabı redaksiyasının cəfakeş, zəhmətsevər, vətənpərvər kollektivi iki şəhidin də borcundan çıxdı. Bir yeni kitab abidəsi yaratdı, təqdim etdi..."Şəhidlər ölməz, vətən bölünməz" nidasını içində yaşadan hər kəs şəhidlərin haqqını ödəməyə hazırdır. Ən böyük xidməti isə bu yolda Nəzakət Məmmədovanın rəhbərliyi ilə cəfakeş Xatirə Kitabı kollektivi göstərir...

***İradə SARIYEVA***
***Şəmkir-Bakı***